

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 6 dekabr 2025-ci il №88 (2997) https://mod.gov.az Qiymәti 30 qəpik


## Prezident İlham Əliyev Birləşmiş Krallığın müdafiə üzrə dövlət nazirini qəbul edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının müdafiə üzrə dövlət naziri Lord Vernon Koakeri qəbul edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu bildirən qonaq ilk növbədə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin salamlarını dövlətimizin başçısına çatdırıb.

Lord Vernon Koaker ölkələrimiz arasında dostluq və etimada əsaslanan münasibətləri qeyd edərək əlaqələrimizin strateji tərəfdaşlıq müstəvisində inkişaf etdirilməsində maraqlı olduqlarını vurğulayıb.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinə çatdırmağı xahiş edib. Prezident İlham Əliyev Kir Starmerin COP29-da iştirakını və onunla görüşünü məmnunluqla xatırlayıb.

İkitərəfli münasibətlərimizin zəngin tarixinin olduğunu deyən dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın enerji sektorundan başladığını və daha sonra bir çox sahələri əhatə etdiyini vurğulayıb. Prezident İlham Əliyev ticarət, investisiya və digər sahələrdə əməkdaşlığı daha da genişləndirmək üçün yaxşı imkanların olduğunu deyib. Dövlətimizin başçısı hazırda ölkələrimiz arasında müdafiə sənayesi sahəsində əməkdaşlıqla bağlı yeni səhifənin açılmasına toxunaraq, bunu qarşılıqlı etimadın göstəricisi kimi qiymətləndirib.

Qonaq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəli aparılması istiqamətində bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş nəticələr münasibətilə dövlətimizin başçısını təbrik edib.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirərək, bütün bunların tarixi əhəmiyyət daşıdığını vurğulayıb və bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi roluna toxunub. Dövlətimizin başçısı sülh gündəliyinin təşəbbüskarının məhz Azərbaycan olduğunu deyib və onun irəli aparılması üçün ölkəmizin bundan sonra da səylərini davam etdirəcəyini vurğulayıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

*Dekabrın 4-də Almaniya Federativ Respublikasının Kansleri Fridrix Merts Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.*

Fridrix Merts, ilk növbədə, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırıb. Kansler Almaniyanın regionda sabitliyi dəstəklədiyini vurğulayıb.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Azərbaycanın regional sülh təşəbbüslərinin müəllifi olduğunu qeyd edib.

Prezident İlham Əliyev ölkəmizin regionda davamlı sülhün təmin olunması və möhkəmləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcəyini bildirib.

Telefon danışığı zamanı Azərbaycanla Almaniya arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Kansler Fridrix Merts dövlətimizin başçısını Almaniyaya səfərə dəvət edib. Dəvəti məmnunluqla qəbul edən Prezident İlham Əliyev öz növbəsində Almaniya Kanslerini Azərbaycana səfərə dəvət edib. Fridrix Merts də dəvəti məmnunluqla qəbul edib.

## “Doğu Akdeniz-2025” təlimi keçirilib



Türkiyənin İzmir şəhərində "Doğu Akdeniz-2025" (Şərqi Aralıq dənizi-2025) dəvət təlimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimdə qardaş ölkənin hərbi qulluqçuları ilə yanaşı, Azərbaycan ordusunun Hərbi Dəniz Qüvvələrinin bir qrup heyəti, ABŞ-nin terrorizmə qarşı təhlükəsizlik qrupu və Pakistan Ordusunun dəniz patrul təyyarəsi iştirak ediblər.

(Ardı 4-cü səhifədə)




## “Son illərdə Azərbaycanda rəqəmsal ordu konsepsiyası çərçivəsində əhəmiyyətli addımlar atılıb”



Son illərdə Azərbaycanda rəqəmsal ordu konsepsiyası çərçivəsində əhəmiyyətli addımlar atılıb. Rəqəmsal ordunun əsasını təşkil edən elementlərdən biri də məhz rəqəmsal xəritələr, rastr və vektor məlumatlarıdır. Müasir müharibələrdə müştərək əməliyyatların aparılması, habelə asimmetrik və hibrid müharibə konsepsiyalarının həyata keçirilməsi üçün vahid rəqəmsal xəritələrin, müharibə və təhlükəsizlik təyinatlı məkan, məlumat və informasiya sistemlərinin tətbiqi əsas şərtdir. Bundan başqa, coğrafi informasiya sistemlərinin yaradılması da artıq günümüzün tələbidir.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Əməliyyat Baş İdarəsinin rəisi general-leytenant Azər Əliyev Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin "Xəritəçilik İşçi Qrupu"nun 2-ci iclasında çıxışı zamanı deyib. "Dünyada baş verən qlobal rəqəmsallaşma prosesi xəritəçiliyi də əhatə edir və onun fəaliyyət sahələrini genişləndirir. Bu zəruri texniki imkanların, müvafiq proqram təminatının və ixtisaslı kadrların mövcudluğunu şərtləndirir. Bu mənada TDT-yə üzv ölkələrin səylərini birləşdirməsi və təcrübə mübadiləsinin aparılması çox mühüm əhəmiyyətə malikdir. Dost və qardaş ölkələr olaraq vahid xəritələrdən istifadə edilməsinin üstünlüyü danılmazdır. Bu, təkcə texniki uyğunluq məsələsi deyil, bu, qarşılıqlı anlaşma, əməkdaşlıq imkanlarının genişlənməsi, məlumat mübadiləsinin sürətləndirilməsi və birgə təhlükəsizlik mühitinin gücləndirilməsi deməkdir", - deyə general-leytenant A.Əliyev qeyd edib.

## “Türkiyə üçün bölgədə sülh və sabitlik prioritet olaraq qalır”

Türkiyə Silahlı Qüvvələri türk xalqını təhdid etməyənlər üçün heç bir təhlükə yaratmır. Eyni zamanda, Türkiyə Ordusu ölkənin qarşılaşdığı çətinlikləri aradan qaldırmaq üçün bütün imkanlara və qətiyyətə malikdir.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyinin açıqlamasında deyilir. Vurğulanıb ki, Türkiyənin maraqlarına zərər vurmağa yönəlmiş hər hansı addım bundan sonra da uğursuzluğa məhkum olacaq.

"Regionda sülhün və sabitliyin təmin edilməsi Türkiyə üçün prioritet olaraq qalır. Bu, Egey dənizinə də aiddir. Türkiyə Silahlı Qüvvələri üzərinə qoyulmuş bütün öhdəlikləri yerinə yetirməyə hazırdır", - deyə Milli Müdafiə Nazirliyindən bildirilib və Afinanın regiondakı proseslərə konstruktiv yanaşmasına ümid edildiyi ifadə olunub.

Türkiyə Milli Müdafiə Nazirliyində Qara dənizdə gəmilərdə baş verən yanğınlara da münasibət bildirilib. "Davam edən müharibənin yaratdığı təhdidlər fonunda Türkiyə Ordusu bütün lazımi tədbirləri görür. Lakin bu addımlar yalnız riskləri minimuma endirə bilər, uzunmüddətli təhlükəsizlik üçün isə davamlı sülh vacibdir", - deyə vurğulanıb.

Eyni zamanda, nazirlikdə türk qoşunlarının Albaniyadakı "Paşalimanı" hərbi-dəniz bazasından çıxarılması barədə məlumatlar təkzib edilib.

# Azərbaycan və Böyük Britaniya arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib





***Dekabrın 4-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının müdafiə üzrə dövlət naziri Lord Vernon Koakerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***






Müdafiə Nazirliyi xəbər verir ki, Birləşmiş Krallığın nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edərək Vətən uğrunda canlarından keçən şəhidlərimizin xatirələrini ehtiramla yad edib.

Qonaqları salamlayan müdafiə naziri Azərbaycan ilə Böyük Britaniya arasında hərbi sahədə əlaqələrin xüsusi əhəmiyyət daşıdığını və bunun hər iki tərəfin ordusunun inkişafında müsbət rol oynadığını bildirib.

General-polkovnik Zakir Həsənov ötən il ölkəmizdə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hərbi Attaşelik Aparatının təsis edilməsinin əhəmiyyətini vurğulayıb.

Səmimi münasibətə və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Lord Vernon Koaker Birləşmiş Krallığın ölkəmiz ilə hərbi əlaqələrin daha da genişləndirilməsində maraqlı olduğunu diqqətə çatdırıb. Qarşılıqlı səfərlərin və müxtəlif formatlarda keçirilən görüşlərin təcrübə mübadiləsi baxımından səmərəli olduğunu xüsusi vurğulayıb.









Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı fövqəladə və səlahiyyətli səfiri cənab Elin Süleymanov və Birləşmiş Krallığın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Fergus Auldun da iştirak etdikləri görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində qonaqlar, həmçinin "Zabit ixtisas hazırlığı" kursunun gənc zabitlərinin iştirakı ilə keçirilən "Təlimatçı hazırlığı" kursunun növbəti buraxılış mərasimində iştirak ediblər.

Azərbaycan Ordusunun Baş Qərargahında keçirilən mərasimdə Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanov kursun keçirilməsində göstərdikləri dəstəyə görə Birləşmiş Krallığın nümayəndə heyətinə təşəkkürünü bildirib.

Sonda cənab Aqil Qurbanov, Milli Müdafiə Universitetinin rektoru general-mayor Gündüz Əbdülov, Birləşmiş Krallığın nümayəndələri və səfirlər tərəfindən kursu uğurla başa vuran məzunlara sertifikatlar təqdim olunub.



# Dövlətçiliyimizin memarı, xalqımızın xilaskarı

*Azərbaycan xalqının tarixində silinməz izlər qoyan, dövlətçilik ənənələrinin möhkəmləndirilməsində müstəsna xidmətləri olan dahi şəxsiyyət Heydər Əliyev hər bir azərbaycanlının qəlbində əbədi yaşayır.*



Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycan Respublikasının Naxçıvan şəhərində anadan olub. Onun uşaqlıq dövrü olduqca maraqlı və yaddaqalan olub. Zəhmətkeşliyi, intizamı və məqsədyönlü xarakteri ilə yaşıdlarından həmişə fərqlənib, müəllimlərinə özünü ciddi, məsuliyyətli şagird kimi sevdirib. Çalışqanlığı və oxumağa olan böyük marağı ilə həm siyasətçi, həm dövlət xadimi, həm də xalqının parlaq sabahı naminə çalışan, ölkəni ağır sınaqlardan çıxarmağı bacaran xilaskar lider kimi tanınıb.

Ulu Öndər Heydər Əliyev 1939-cu ildə Azərbaycan Sənaye İnstitutunun “Memarlıq” fakültəsinə (indiki Azərbaycan Neft və Sənaye Universiteti) daxil olub. Lakin İkinci Dünya müharibəsinin başlamasına görə təhsilini başa çatdıra bilməyib. 1944-cü ildən dövlət təhlükəsizlik orqanlarında məsul vəzifələrdə çalışıb. 1967-ci ildə “general-mayor” rütbəsi alaraq Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri təyin olunub. Bu yüksəliş Ulu Öndərin siyasi fəaliyyətində ciddi dönüş nöqtəsi idi.

1944-cü ildən dövlət təhlükəsizliyi orqanlarında çalışan Ümummilli Lider Heydər Əliyev bu sahədə öz peşəkarlığı və vətənpərvərliyi ilə fərqlənib, xalqına və dövlətinə bağlılığı ilə nümunəvi bir şəxsiyyət olub. Ulu Öndərin dövlətçilik fəlsəfəsi xalqın iradəsinə əsaslanan müasir, dünyəvi və hüquqi dövlət qurmaq prinsiplərinə söykənirdi.

Dahi rəhbərin siyasi fəaliyyəti 1969-cu ildə Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildiyi vaxtdan başlayıb. Həmin dövrdə onun rəhbərliyi ilə ölkədə sosial-iqtisadi və mədəni inkişafın əsası qoyuldu, həyata keçirilən genişmiqyaslı islahatlar sayəsində Azərbaycan keçmiş SSRİ-də ən öndə gedən respublikalardan birinə çevrildi. Məhz Ümummilli Liderin rəhbərliyi ilə respublikada bir çox sosial, iqtisadi, elm, təhsil və mədəniyyət sahəsində irəliləyişlər baş verdi. Belə ki, respublikamızın kənd təsərrüfatı sahəsində böyük nailiyyətlər qazanıldı, sənaye müəssisələri genişləndirildi.

Ulu Öndər 1982-ci ilin dekabrında SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. SSRİ rəhbərliyində çalışdığı dönəmlərdə də xalqımızın dahi oğlu Vətənini unutmur, onun inkişafı naminə böyük dəstəyini, köməyini əsirgəmirdi, ürəyi hər zaman doğma Azərbaycanla döyünürdü.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının xalqımıza qarşı törətdiyi 20 Yanvar faciəsinə biganə qalmayan Ulu Öndər Azərbaycanın Moskvadakı nümayəndəliyində bu qanlı faciəyə öz etirazını sərt şəkildə bildirmişdi. Xalqımızın başına gətirilən müsibətlərə səssiz qalmayan Dahi Lider 1990-cı il iyulun 22-də doğulub boya-başa çatdığı Naxçıvan Muxtar Respublikasına qayıdır. O illərdə Naxçıvan ağır blokada şəraitində idi. Həm iqtisadi çətinlik, həm də siyasi gərginlik getdikcə daha da alovlanırdı. Dahi şəxsiyyət Heydər Əliyev qısa zaman ərzində bu gərginliyi aradan qaldırdı və sabitliyi bərpa etdi.

Azərbaycanın gələcəyini milli maraqlar əsasında qurmaq, ölkəni təhlükəsizlik və inkişaf yoluna çıxarmaq Ulu Öndərin əsas fəaliyyət prinsipi idi. Ümummilli Liderin müdrik və uzaqgörən siyasəti nəticəsində Azərbaycan sabit və güclü dövlət kimi formalaşdı.

Dahi rəhbərin əsas prinsiplərindən biri ölkədə sabitliyi və təhlükəsizliyi bərpa etmək idi. Məhz Ulu Öndərin müdrik və uzaqgörən siyasəti nəticəsində daxili sabitlik bərqərar olundu və ordu quruculuğu prosesinə başlanıldı. Əbədiyaşar Komandan güclü ordunun, müstəqil dövlətin əsas dayağı olduğunu yaxşı bilirdi.

1993-cü ildə Azərbaycanda ciddi siyasi böhran yaşanırdı. Demək olar ki, ölkə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalmışdı. Bu dövrdə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Azərbaycanı hərcmərclikdən, xaosdan, dağılmaq təhlükəsindən xilas etdi. Azərbaycan xalqını canı qədər sevən Ulu Öndər Heydər Əliyev müstəqil dövlətin möhkəmlənməsi üçün zəruri islahatlar apardı və bununla da dövlətçiliyin əsasları qoyuldu.

Ümummilli Lider Heydər Əliyev təhsil sahəsində də bir sıra islahatlar apardı. Belə ki, Ulu Öndərin təşəbbüsü ilə minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil aldı. O, gəncləri Azərbaycanın sabahı kimi qiymətləndirirdi: "Gənclər bizim gələcəyimizdir" şüarı onun siyasətində əsas yeri tuturdu.

Ümummilli Lider Heydər Əliyevin dövründə hərbi təhsil sistemi yenidən təkmilləşdirildi, zabit heyətinin hazırlığı yüksək səviyyədə təşkil olundu. Belə ki, ordu xalqın etibar etdiyi ən güclü qüvvəyə çevrildi. Ulu Öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasətini bu gün onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev uğurla davam etdirir. Məhz bu siyasətin, milli inkişaf strategiyasının nəticəsidir ki, 2020-ci ilin noyabrında şanlı Azərbaycan Ordusu düşmən üzərində tarixi Zəfər qazandı.

Dahi Lider Heydər Əliyev Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artırılması üçün müxtəlif layihələr həyata keçirdi. Onun daxili və xarici siyasəti nəticəsində ölkəmiz bir sıra beynəlxalq təşkilatlara üzv oldu, mühüm iqtisadi və siyasi əlaqələr quruldu. Neft strategiyası ilə ölkəyə böyük sərmayələr qoyuldu və beləliklə, "Əsrin müqaviləsi" imzalandı və Azərbaycan iqtisadiyyatı gücləndi. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın sabitlik və inkişaf yolunda irəliləməsi üçün uzaqgörən siyasət yürüdərək, xalqı və dövləti birləşdirdi.

Dahi şəxsiyyət Heydər Əliyev xalqımızın yaddaşında həm böyük siyasətçi, həm də onun fədakar oğlu kimi yaşayır. Ümummilli Liderin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı dahi rəhbərin Azərbaycan xalqına necə bağlı olduğunun bariz nümunəsidir.

Dünya şöhrətli siyasətçi Heydər Əliyev müdrik dövlət başçısı olmaqla yanaşı, həm də jurnalistlərin yaxın dostu idi. Sözə, qələmə, jurnalist peşəsinə həmişə dəyər verən Ulu Öndər jurnalistlərin cəmiyyətin inkişafında oynadığı əvəzsiz rolu həmişə yüksək qiymətləndirib. O, dəfələrlə mətbuat nümayəndələri ilə görüşlərində qeyd edirdi: "Azad və obyektiv mətbuat cəmiyyətin inkişafının təməl şərtlərindən biridir".

Xalqımızın xilaskar oğlu Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan mətbuatında yeni mərhələ başlandı. Onun təşəbbüsü və göstərişi ilə mətbuatın inkişafı üçün geniş imkanlar yarandı. Belə ki, 1998-ci ildə mətbuat üzərindən senzuranın ləğv edilməsi qərarı onun jurnalistika sahəsinə verdiyi dəyərin ən əsas nümunələrindən biri oldu.

Ulu Öndər öz müsahibələrində həmişə jurnalistlərin cəmiyyətin güzgüsü olduğunu ön plana çəkirdi. Onun jurnalistikaya verdiyi dəyər və söz azadlığı üçün yaratdığı şərait Azərbaycan mətbuatının inkişafı üçün möhkəm təməl idi.

Dahi rəhbər Heydər Əliyevin siyasi irsi və dövlətçilik təcrübəsi bu gün də Azərbaycan üçün işığı bir yoldur. Onun müəyyən etdiyi inkişaf strategiyası hazırda Azərbaycan Respublikasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın hər bir uğuru, müstəqilliyi, ərazi bütövlüyü və beynəlxalq aləmdə nüfuzu məhz bu siyasətin nəticəsidir.

2020-ci ilin Vətən müharibəsi, 2023-cü ilin antiterror əməliyyatı və ölkə suverenliyinin tam bərpa olunması Heydər Əliyev siyasətinin və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev liderliyinin tarixi qalibiyyətidir. Bu gün Azərbaycan Ordusunun yüksək texnoloji silahlanması, peşəkar kadr heyəti, qələbə ruhu və vətənpərvərlik ideologiyası ilə Heydər Əliyevin yaratdığı dövlətçilik məktəbinin əyani tərənnümüdür.

Azərbaycan tarixində Heydər Əliyev kimi böyük bir dövlət xadiminin olması, onun qurduğu müasir, güclü, suveren dövlətin möhkəm təməlləri üzərində inkişafı hər birimizi qürurlandırır. Onun əziz, unudulmaz xatirəsi xalqımız tərəfindən daim uca tutulur. Ulu Öndərin özündən sonra qoyub getdiyi irs həm bizim, həm də gələcək nəsillər üçün bir örnək, bir həyat məktəbidir.

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan nümayəndə heyəti İtaliyada keçirilən təlimdə iştirak edib





Azərbaycan nümayəndə heyəti İtaliyanın Veneto regionunda keçirilən "Adaptive Interaction 2025" çoxmillətli hərbi-mülki əməkdaşlıq (CIMIC) təlimində müşahidəçi qismində iştirak edib.

Müdafiə Nazirliyi xəbər verir ki, təlim çərçivəsində Azərbaycan Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi polkovnik Anar Eyvazov NATO-nun Çoxmillətli hərbi-mülki əməkdaşlıq (CIMIC) qrupu və 7-ci CIMIC alayının komandiri polkovnik Piero Furlan ilə görüşüb.

Görüşdə NATO əməliyyatlarında CIMIC bölmələrinin effektiv tətbiqinə dair ətraflı fikir mübadiləsi aparılıb.

Polkovnik A.Eyvazov Azərbaycan Ordusunun Qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi və Antiterror daxil olmaqla digər hərbi əməliyyatlar zamanı mülki əhalinin və infrastrukturun qorunmasına dair ordumuzun həyata keçirdiyi tədbirlərdən danışıb.

Daha sonra Azərbaycan nümayəndə heyəti çoxmillətli təlimin Yüksək Səviyyəli Müşahidəçi Günündə iştirak edib.

Yüksək səviyyəli qonaqlar təlimin ssenarisinə uyğun olaraq əməliyyat zonasında müxtəlif mülki müəssisə və təşkilatlar ilə əlaqələrin qurulması, onlara zəruri dəstəyin verilməsi və hərbi əməliyyatların gedişatına təsir edəcək faktorların analizi üzrə tapşırıqların icrasını izləyiblər.

Ümumilikdə 12 NATO üzv və tərəfdaş ölkəsinin CIMIC bölmələrindən 200 nəfərin iştirakı ilə keçirilən təlimin gedişatı müsbət qiymətləndirilib.

# Azərbaycan və Macarıstan arasında hərbi tibb sahəsində əməkdaşlıq müzakirə olunub





Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Macarıstan Respublikası Müdafiə Qüvvələri arasında 2025-ci il üçün imzalanmış ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, Bakıda hər iki ölkənin hərbi tibb sahəsi üzrə mütəxəssisləri arasında görüş keçirilib.

Müdafiə Nazirliyinin Tibb İdarəsində keçirilən görüşdə qonaqlara Azərbaycan Ordusunda tibb xidmətinin təşkili, hərbi tibb sahəsində aparılan uğurlu islahatlar, tətbiq olunan yeni praktik müalicə yanaşmaları, xidmətdə və ehtiyatda olan hərbi qulluqçulara və onların ailə üzvlərinə göstərilən tibb xidmətləri barədə brifinq təqdim olunub. Baş Klinik Hospitalda hərbçilərin müayinə və müalicəsi üçün bütün növ şəraitin yaradılması, yüksək peşəkarlığa malik tibbi personalın həvəslə fəaliyyət göstərməsi xüsusi vurğulanıb.

Müdafiə Nazirliyi xəbər verir ki, daha sonra tərəflər arasında hərbi tibb sahəsində əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında ətraflı fikir mübadiləsi aparılıb. Azərbaycan və Macarıstan arasında hərbi tibb sahəsində əməkdaşlıq imkanlarının genişləndirilməsi, təcrübə mübadiləsi və peşəkar hazırlığın artırılması istiqamətində işçi görüşlərin davam etdiriləcəyi qeyd olunub.

Görüşdən sonra Macarıstan nümayəndə heyəti Müdafiə Nazirliyinin Baş Klinik Hospitalını və digər hərbi tibb müəssisələrini ziyarət edib, yaradılan şəraitlə yaxından tanış olub.

Sonda tərəflər arasında hədiyyə mübadiləsi aparılıb və xatirə şəkilləri çəkdirilib.

## Azərbaycan Ordusunda psixoloqlar üçün təlim proqramı keçirilir





Azərbaycan Ordusunda xidmət edən psixoloqların bilik və bacarıqlarını, peşəkarlıq səviyyələrini artırmaq, müxtəlif xidmət şəraitlərində daha effektiv fəaliyyət göstərmələrini təmin etmək məqsədilə Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunda psixoloji təlim keçirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimin ilk günündə qardaş Türkiyə Respublikasından dəvət edilmiş psixoloq tərəfindən "EMDR terapiya" (Eye Movement Desensitization and Reprocessing - Göz Hərəkətləri ilə Desensitizasiya və Yenidən Emal) mövzusunda iştirakçılara ətraflı məlumat verilib.

Plana əsasən, təlim iştirakçılarına psixoloji travmalar, onların yaddaşda hansı formalarda qalması, bio-polyar pozuntular, uşaqlıq qorxularının aradan qaldırılması metodları, döyüş və ekstremal şəraitdə travma yaşayan hərbi qulluqçuların psixoloji vəziyyətlərinin neyropsixoloji aspektləri və onlara effektiv dəstək yolları, dərin psixoloji problemlərin aradan qaldırılması üsulları və bu üsulların tətbiq mexanizmləri barədə geniş izahlar verilir.

İnteraktiv formada təşkil edilən təlimdə iştirakçılar real vəziyyətlərə əsaslanan nümunələri təhlil edərək, mövzu ilə bağlı müasir elmi yanaşmalar və təcrübədə tətbiq olunan metodlardan istifadə etməklə təcrübi tapşırıqlar vasitəsi ilə bilik və bacarıqlarını artırmaq imkanı əldə edəcəklər.

Qeyd edək ki, Azərbaycan Ordusunda xidmət edən psixoloqların təkmilləşdirilməsi məqsədilə keçirilən təlim dekabrın 9-dək davam edəcək.

## "Doğu Akdeniz-2025" təlimi keçirilib




**(Əvvəli 1-ci səhifədə)**

Təlimdə qarşıya qoyulan tapşırıqların icrası zamanı iştirakçı ölkələrin hərbi qulluqçuları yüksək peşəkarlıq nümayiş etdiriblər.

Qeyd edək ki, dəvət təliminə on doqquz ölkədən hərbi qulluqçular müşahidəçi qismində qatılıblar.



## Bakıda Azərbaycan və Belarus hərbi mütəxəssisləri görüşüb

Azərbaycan və Belarus Müdafiə nazirlikləri arasında 2025-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq planına əsasən, Belarus nümayəndə heyəti ilə "Pilotsuz aviakomplekslərin tətbiqi və pilotsuz uçuş aparatları operatorlarının hazırlanması sahəsində əməkdaşlığa dair işçi görüş" keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, görüş zamanı insansız hava sistemləri sahəsində ətraflı fikir mübadiləsi aparılıb. Tərəflər bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi imkanlarını dəyərləndirərək maraq doğuran bir sıra məsələləri müzakirə ediblər.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub və xatirə şəkli çəkdirilib.



## Bakıda NATO-nun mobil təlim qrupu tərəfindən seminar-məşğələ keçirilir

2025-ci ilin NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməkdaşlıq Proqramına əsasən, NATO-nun Brunssum Birgə Qüvvələr Komandanlığının mobil təlim qrupu tərəfindən "Əldə düzəldilmiş partlayıcı qurğulara qarşı mübarizə" mövzusunda seminar-məşğələ keçirilir.

Tədbirdə Müdafiə Nazirliyinin Mühəndis Qoşunları Baş İdarəsinin və onun tabeliyindəki hərbi hissələrdə xidmət edən hərbi qulluqçuların, həmçinin xüsusi təyinatlı təhsil müəssisələrinin mühəndis ixtisaslı zabitləri iştirak edirlər.

Müdafiə Nazirliyi xəbər verir ki, keçirilən məşğələ zamanı iştirakçılara müxtəlif mövzularda brifinqlər təqdim edilir.




## General-leytenant Azər Əliyev müdafiə və təhlükəsizlik sahəsində topoqrafik xəritələrin əhəmiyyətindən danışıb

*Hazırda Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin Xəritəçilik İşçi qrupunda ortaq şərti işarələrin hazırlanması üzrə işlər davam edir. Məqsədimiz vahid standartlara cavab verən ümumi xəritə yaratmaqdır. Bununla yanaşı, TDT-yə üzv ölkələrin müxtəlif sahədə, o cümlədən inzibati, tarixi, mədəni, turizm sahələrini əhatə edən tematik xəritələrin hazırlanması da Türk dünyasının tanıdılması və əlaqələrimizin inkişafına dəyərli töhfə vermiş olacaq.*




AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Əməliyyat Baş İdarəsinin rəisi general-leytenant Azər Əliyev Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin "Xəritəçilik İşçi Qrupu"nun 2-ci iclasında çıxışı zamanı deyib.

Müdafiə və təhlükəsizlik sahəsində topoqrafik xəritələrin əhəmiyyətini xüsusi qeyd edən A.Əliyev bildirib: "44 günlük Vətən müharibəsi zamanı xəritəçiliyin döyüş fəaliyyətlərinin idarə edilməsində xüsusi rolu və yeri hamı üçün bir daha bəlli oldu. Müasir müharibələrdə yüksəkdəqiqlikli silahların, elektron idarəetmə sistemlərinin, pilotsuz uçuş aparatlarının tətbiq edildiyi bir şəraitdə dəqiq topoqrafik xəritələr, peşəkar şəxsi heyət olmadan qələbə qazanmaq qeyri-mümkündür.

Bu, bir daha xəritəçi mütəxəssislər üzərinə nə qədər böyük məsuliyyətin düşdüyünü, döyüş tapşırığının icrasında onların ciddi rol oynadığını göstərir. Əldə edilən təcrübə əsasında 2021-ci ildə Müdafiə Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə hazırladığı texniki tapşırığa uyğun olaraq Geodeziya və Kartoqrafiya Agentliyi tərəfindən dünya geodeziya koordinat sisteminə əsaslanan yeni topoqrafik xəritələrin hazırlanmasına start verilib. Bu il proses müvəffəqiyyətlə başa çatdırılıb".

### *Görkəmli şəxsiyyətlər*

## "Müqəddəs Georgi" ordeninə layiq görülən ilk azərbaycanlı - general-mayor İsmayıl bəy Qutqaşınlı




*İsmayıl bəy Nəsrullah Sultan oğlu Qutqaşınlı 27 yanvar 1806-cı ildə Şamaxı qəzasının Qutqaşın mahalında (indiki Qəbələ rayonu) anadan olub.*

Atası Nəsrullah Sultan Qutqaşın mahalının son sultanı olub. Azərbaycan Rusiya imperiyası tərəfindən işğal edildikdən sonra həmin mahalın başçısı təyin edilib.

O, dörd il Peterburqdakı kadet məktəbində oxuyub. 1822-ci ildə bu məktəbi bitirib, həmin ildə Rusiya ordusunda Əlahiddə Qafqaz Korpusu tərkibindəki Gürcüstan Qrenadyor Alayında sıravi əsgər kimi hərbi xidmətə başlayıb.

İsmayıl bəy 17 avqust 1822-ci ildə "podpraporşik", 27 avqust 1824-cü ildə isə "praporşik" rütbəsi alıb.

İsmayıl bəy Qutqaşınlı Rusiya-İran (1826-1828) və Rusiya-Türkiyə (1827-1829) müharibələrində iştirak edib. Döyüşlərdə fərqləndiyinə görə müxtəlif mükafatlara layiq görülüb. O, 13 sentyabr 1826-cı ildə Yelizavetpol döyüşündə iştirak edib. Döyüşdə fərqlənməyə görə 28 yanvar 1827-ci ildə "podporuçik" rütbəsinə yüksəlib. 1827-ci ilin iyulunda Abbasabad qalasının, həmin ilin sentyabrında isə Sərdarabad qalasının, 1827-ci ilin 24 sentyabr-1 oktyabr tarixlərində isə İrəvanın mühasirəsində və ələ keçirilməsində iştirak edib.

Rusiya-Türkiyə müharibəsi zamanı o, 14 iyun 1829-cu ildə Hakkı Paşanın ordusunun, 19 iyunda Ərzurum Seraskirinin əsas qüvvələrinin məğlub edilməsində, 23 iyunda Həsənqala qalasının ələ keçirilməsində və 24-27 iyun 1829-cu il tarixlərində Ərzurumun ələ keçirilməsində iştirak edib. Əla xidmətlərinə görə o, 24 aprel 1829-cu ildə "poruçik" rütbəsinə yüksəldilib.

Müharibələr qurtardıqdan sonra o, hərbi xidmətini davam etdirib, hərbi işi daha dərindən öyrənib.

İsmayıl bəy Qutqaşınlı 20 noyabr 1829-cu ildə general N.P.Pankratyevin adyutantı təyin edilib. 6 yanvar 1831-ci ildə əvvəlki vəzifəsində qalaraq Əlahəzrət İmperatorun əmri ilə eyni rütbə ilə Pavlovski Alayına köçürülüb.

7 oktyabr 1831-ci ildə "Dağlılara qarşı döyüşlərdə fərqləndiyinə görə" üzərində "İgidliyə görə" yazısı olan qızıl qılıncla təltif edilib. 1835-1836-cı illərdə Varşavada Zaqafqaziya Müsəlman Süvari Alayında xidmət edib. 6 dekabr 1835-ci ildə "ştabs-kapitan" rütbəsinə yüksəlib. 1836-cı ildə o, xüsusi tapşırıqlar üçün Əlahiddə Qafqaz Korpusunun xüsusi tapşırıqlar üzrə komandiri təyin edilib. 1837-ci il iyunun 28-dən sentyabrın 30-dək o, müvəqqəti olaraq Qaraqaytaq əyalətinə rəhbərlik edib.

30 sentyabr 1838-ci ildə xidmətdə fərqləndiyinə görə "kapitan", 31 mart 1839-cu ildə "podpolkovnik", 2 may 1841-ci ildən isə "polkovnik" rütbəsinə yüksəlib.


İsmayıl bəy Qutqaşınlı və xanımı Tutu Bikənin məzarı

1848-ci ildən Şamaxı Quberniyasının "Bəylərin Torpaq Hüquqları üzrə Komissiya-sı"nın üzvü olub. Komissiyaya yuxarı müsəlman təbəqəsinin torpaq və şəxsi hüquqlarını müəyyən etmək tapşırılıb. İsmayıl bəy, həmçinin Azərbaycanın iqtisadi inkişaf perspektivləri ilə maraqlanıb, "Bölgədə ipəkçiliyin inkişafı haqqında" qeyd hazırlayıb və öz mülkündə yeni istehsal formaları tətbiq etməyə çalışıb. 1850-ci ildə o, Qafqaz Əkinçilik Cəmiyyətinin, daha sonra isə Qafqazda ilk elmi müəssisə olan Rus Coğrafiya Cəmiyyətinin Qafqaz şöbəsinin həqiqi üzvü seçilib.

6 dekabr 1850-ci ildə Əlahiddə Qafqaz Korpusunda süvari qoşunlarına komandanlıq etməklə "general-mayor" rütbəsinə yüksəlib.

1 mart 1852-ci ildə o, ən yüksək əmrlə Məkkəni və Məhəmməd peyğəmbərin (s.a.v) məqbərəsini ziyarət etmək üçün bir il yarım müddətinə Ərəbistana (Həcc ziyarətinə) xarici məzuniyyətə göndərilib.

İsmayıl bəy Qutqaşınlı döyüşlərdə göstərdiyi şücaətlərə və hərbi xidməti zamanı fərqləndiyinə görə 4-cü dərəcəli "Müqəddəs Anna" (1828), 2-ci dərəcəli "Şire-Xurşid" (1828), 3-cü dərəcəli "Müqəddəs Anna" (1830), 4-cü dərəcəli "Müqəddəs Vladimir" ordeni (1831), "İgidliyə görə" yazısı olan qızıl qılınc (1832), 3-cü dərəcəli "Müqəddəs Stanislav" (1832), 2-ci dərəcəli "Müqəddəs Anna" (İmperator Tacı ilə) (1839), 4-cü dərəcəli "Müqəddəs Georgi" (4 dekabr 1843), 3-cü dərəcəli "Müqəddəs Vladimir" (1844) ordeni və



müxtəlif qiymətli hədiyyələrlə təltif olunub.

O, istefaya çıxdıqdan sonra Vətənə qayıdaraq, Qutqaşında və Şamaxıda yaşayıb, orada dərs deyib.

İsmayıl bəy Qutqaşınlı uşaqlıq və gənclik illərində dini təhsil alıb, ərəb, fars dillərini öyrənib, klassik Azərbaycan və Şərq ədəbiyyatı ilə yaxından tanış olub. Hərbi xidmət illərində o, bir sıra mütərəqqi rus ziyalıları ilə dostluq əlaqəsi yaradıb, rus və Qərbi Avropa mədəniyyətlərinin nailiyyətlərinə yiyələnib, dövrünün ən savadlı Azərbaycan ziyalılarından biri olub. Eyni zamanda, o, Azərbaycanın böyük maarifçi alimləri - Mirzə Fətəli Axundov, Qasım bəy Zakir, Abbasqulu ağa Bakıxanov və başqaları ilə yaxından dostluq edib. İsmayıl bəy Qutqaşınlı 1852-ci ildə xanımı ilə Yaxın Şərq ölkələrinə səyahət edib.

İsmayıl bəy Qutqaşınlı həm də Azərbaycan ədəbiyyatına müasir nəsr, hekayə janrını gətirən yazıçıdır. Varşavada Zaqafqaziya Müsəlman Süvari Alayında xidmət edərkən o, 1835-ci ildə fransız dilində yazdığı, şah əsəri sayılan "Rəşid bəy və Səadət xanım" hekayəsini çap etdirib. Azərbaycan folklorunun, xüsusən də dastanların və rus sentimentalizminin təsiri ilə, romantik sevgi mövzusunda Avropa üslubunda yazılan ilk Azərbaycan bədii əsəri olub. Bu kitab həm də bir azərbaycanlı tərəfindən Qərbi Avropa dilində nəşr olunan ilk kitab, eyni zamanda, Qərbi Avropa ədəbiyyatının tipik ənənələrində yazılmış ilk Azərbaycan romanı (və ya qısa hekayəsi) idi.

Bəzi mənbələrə görə, İ.Qutqaşınlının "Tutu" adlı əsəri də olub. Ancaq bu əsər itirilmiş və günümüzə gəlib çatmamışdır. Bundan başqa o, "Miskin" təxəllüsü ilə şeirlər də yazıb. Təəssüf ki, onun əlyazmaları 1930-cu illərdə repressiya dövründə məhv edildiyindən bu günədək gəlib çatmayıb. Ancaq ona aid olması iddia edilən və 1973-cü ildə aşkarlanan, 1999-cu il aprelin 22-də Qəbələdə "Qəbələ" qəzetində nəşr edilən "İki quşun söhbəti" adlı şeir də var.

Böyük ədib iki dəfə müqəddəs Həcc ziyarətində olub. Bu səyahəti ilə əlaqədar 1967-ci ildə çap olunan "Səfərnamə" adlı yol qeydlərini yazıb. Əsər Qutqaşınlının getdiyi yolun coğrafiyasının öyrənilməsində böyük əhəmiyyət daşıyır. Hazırda bu əsərin cəmi 126 səhifəsi tapılıb.

İsmayıl bəy istefaya çıxdıqdan sonra Azərbaycan xalqının maariflənməsində və milli təfəkkürün oyanmasında aktiv fəaliyyətə başlayıb. Sözsüz ki, bu da çar hökumətinin maraqlarına cavab vermirdi. Ona görə də Qutqaşınlını tezliklə aradan götürmək üçün planlar hazırlanıb. Ehtimal olunur ki, 1854-cü ilin aprelində ona ünvanlanmış, Anadolu ordusunun baş komandanı Mustafa Zərif Paşadan Azərbaycan və Dağıstanda üsyanlar təşkil etməyə çağıran məktub erməni M.T.Loris-Məlikovun əlinə keçib. Nəticədə 1855-ci ildən İ.Qutqaşınlı nəzarətə götürülüb. 14 avqust 1861-ci ildə Ağdaş mahalında karvansarada yemək yeyərkən ruslar tərəfindən ermənilərin əli ilə qidasına zəhər qatılmaqla İ.Qutqaşınlının və həyat yoldaşı Tutu Bikə xanımın həyatına son qoyulub. Onlar Qəbələdəki Soltanbaba qəbiristanlığında dəfn ediliblər.

Onun adı Azərbaycan xalqının qəlbində daim yaşayır. Qəbələ şəhərinin mərkəzi küçələrindən birinə İsmayıl bəy Qutqaşınlının adı verilib. Eyni zamanda, Qəbələdə ədibin heykəli ucaldılıb, xatirə-ev muzeyi yaradılıb. Bakının Yasamal rayonundakı mərkəzi küçələrindən birinə də Qutqaşınlının adı verilib.

**"Azərbaycan Ordusu"**

# “Hərbi xidmət vətənpərvərlik məktəbidir”

*Hərbi xidmət haqqında ilk söhbətlər ailədə olur, sonra orta məktəbdə. Oğlanların gələcəyi ilə bağlı fikirlər səsləndiriləndə həm də böyük sevgilərlə "...böyüyəcək, hərbi xidmətə yollanacaq..." da deyilir. Qəlbində ucalan bu sevgi, yaşadılan bu niyyət uşağı məktəbə uğurlayır, sonra yeniyetməliyə... Məktəbdə müəllimlərinin söhbətləri onun düşüncələrini də genişləndirir, dünyagörüşünü də... Çağırışçı gəncliyinə Vətənə ad olan niyyətlərlə çatır. Bu niyyətlərin ən ülvisi, ən müqəddəsi Vətənə xidmətdir...*

*Vətənə xidmətin başlanğıcı kimi sonu da tarix olur. Çağırışçı hərbi xidmətə başlayır (valideynlərinin də, müəllimlərinin də niyyəti gerçəkləşir), əsgərin hərbi xidməti başa çatır, vətəndaş kimi formalaşır. Hərbi xidmətdən tərxis edilən əsgərlərin düşüncələrində azərbaycançılıq işığı olur, milli-mənəvi dəyərlərimizə sədaqət olur. Həm də bir ürək tutumunca qürur, mənəvi yüksəliş və kövrək duyğular olur:*



**Əsgər Ağaxan Zeynalov:**

- Gəncədə anadan olmuşam, orada təhsil almışam. Sonuncu sinifdə oxuyanda hərbi xidmətdən tərxis edilmiş qonşularımızla söhbətləşməyə çox maraqlı idim. Bu söhbətləri təhsilimin davamı bilirdim. Vətəni biz də sevirdik, hərbi xidmətdən tərxis edilmiş qonşularımızın söhbətləri, hərbi xidmət təəssüratları bizim bu sevgimizi mətinləşdirirdi. Onda nə vaxtsa eşitdiyim bir deyim mənim də, sinif yoldaşlarımın da düşüncələrinə bir işıq olmuşdu: “Vətəni sevmək azdır, onu qorumaq gərək”.

Biz də Vətənə xidmətə gəldik, Hərbi And içdik. Hərbi Anda Vətənə sədaqət andı deyirlər. Bu, həqiqətən də, belədir. Mənə elə gəlir ki, Hərbi And həm də vətəndaşlıq andıdır. Biz də digər əsgərlərimiz kimi bu anda sadiq qaldıq, həmişə sadiq qalacağıq...

Hərbi xidmətdə hərbi biliklər öyrəndik, öyrəndiklərimiz hərbi təlimlərdə möhkəmləndi, təkmilləşdi. Hərbi xidmət əvvəl əsgərdə özünə inamı gücləndirir. Bizim də hərbi xidmətimiz bu inamla keçdi...

İctimai-siyasi dərslərin birində qrup rəhbərimiz İkinci Qarabağ müharibəsindən danışırdı. Müharibənin başlanma səbəbləri, döyüşlər, qəhrəmanlıqlar haqqında eşitdiklərimiz bizi hərbçi-vətəndaş kimi qürurlandırırdı. Qrup rəhbəri bu müharibənin ədalətli müharibə olduğunu da bildirdi. Güclü ordumuzun tarixi Zəfərini həmin dərsdə nəfəs-nəfəsə yaşadıq. Xidmətə başlayanda Hərbi And içmişdik, həmin gün dərsdən sonra əsgərlərimizdən birinin təklif etdiyi fikri də and bildik: şanlı Zəfəri biz də məsuliyyətlə yaşadacağıq.

Etiraf edirəm ki, həmin gün yaşımızın azlığına görə bir daha təəssüfləndik. Qrup rəhbərimiz bizə bildirdi ki, yaşadığınız bu təəssüfü nümunəvi xidmətiniz unutduracaq. Sizin bu təəssüfünüz də vətənpərvərlikdir. Biz belə xidmət etdik...

Hərbi xidmət məni də vətənpərvər gənc kimi formalaşdırdı. Əsgər yoldaşlarımızdan biri türk şairi Orxan Şaiq Gökyayın "Bu Vətən kimindir?" şeirini demişdi. Bu suala hamımız "Vətən Vətəni nəfəsi bilənlərindir!" demişdik... Başqa cavablar da ola bilər, var. Biz belə düşündük və xidmət müddətində nəfəsimiz bildiyimiz Vətənin keşiyində məsuliyyətlə, əsgəri sədaqətlə dayandıq.

Mən də Vətən üçün yaşamağın nə olduğunu xidmət edə-edə daha dərindən öyrəndim. Bir daha əmin oldum ki, Vətənə xidmət hərbi xidmətlə tamamlanmır. Fikrimizi komandirimiz də bəyəndi: "Yaxşı xidmət etdin, Zeynalov, gözəl düşüncələrlə də tərxis olunursan..." - dedi. Qürurlandım...

Hərbi xidmət əsgərin xarakterinin də, düşüncələrinin də, milli-mənəvi dərkinin də komandiri, komandir əsgərin vətəndaş kimi formalaşması prosesinin müəllimi olur.

**Əsgər Arzu Məmmədli:**

- Hərbi xidmətə Ağstafa rayonundan çağırılmışam. Xidmətimin ilk vaxtlarında mənim də müəyyən çətinliklərim olurdu. Doğrudur, orta məktəbdə oxuyanda qismən də olsa hərb sahəsinin çətin və şərəfli olduğunu bizə demişdilər, ancaq xidmətdə sırada dönmələri yerinə yetirməyə çətinlik çəkirdim. Onda komandirimiz ad-soyad səsləndirmədən dedi ki, yoldaşınıza kömək edin. Əsgər yoldaşlarım asudə vaxtlarda mənə sıra təlimlərini təkrarlatdılar. Qısa müddətdə sırada dönmələri yerinə yetirməyi mən də mükəmməl öyrəndim. Komandirimiz demişkən, hərbi xidmət əsgərlərə yoldaşlıq, dostluq duyğularının fəlsəfəsini də aşılayır.

Bizim bölükdə bir əsgər vardı, gözəl şeirlər yazırdı. Onun şeirlərini maraqla dinləyirdik. Hərdən müəyyən şeirlər haqqında fikirlərimizi də bildirirdik. Asudə vaxtlarımızın əksəriyyəti şeirlə ötüşürdü. Belə şeirli



saatlara hərdən komandirimiz də gəlirdi. Qürurlu baxışları üzümüzdən çəkilməzdi. Şeirlərini bəyəndiyi əsgər yoldaşımızla qürurlanardı, şeirə sevgimizə görə bizimlə. Hərbi xidmət bizim duyğularımızı da incəltdi, şeirə marağımızı da artırdı. Mən də bir daha əmin oldum ki, hərbi xidmət həm də pedaqoji prosesdir - öyrədir, aşılayır, təkmilləşdirir...

Biz xidmətə başlayanda tərxis edilən əsgərlərdən biri demişdi: "Biz xidmətdə əmin olduq ki, hərbi xidmət əsgərin mənəvi dünyasıdır. Bir-birini tanıya-tanıya, dostlaşa-dostlaşa, sevə-sevə əmin olacaqsınız ki, Vətəni əsgər dostlarını sevməkdən gözəl heç nə ola bilməz". Xidmətimizdə bu kəlmələrə də əmin olduq. Həm də unutmayacağıq.



Müxtəlif təlimlərdə iştirak etmişik. Hər biri bizim döyüş hazırlığımızın yüksəlməsini təmin edib. Hərbi hissənin döyüş hazırlığı bilavasitə əsgərin döyüş hazırlığından asılıdır. Ona görə də təcrübəli əsgərlər xidmətə təzə başlayanların da püxtələşməsində, bu və ya digər təlimi məharətlə yerinə yetirməsində köməyini əsirgəmirlər. Bu kömək həm də qarşılıqlı münasibətlərin möhkəmlənməsində əhəmiyyətli olur. Komandirimiz İkinci Qarabağ müharibəsinin bir döyüşündən danışmışdı: düşmənin atəşi altında yaralı döyüşçünü döyüşün içindən çıxartmaq istəyən döyüşçü ağır yaralansa da, sürünə-sürünə özünü ona yetirir. Əli əlinə çatanda ikisi də son nəfəsini çəkir, ikisi də şəhid olur. Əsgər dostunu ölümdən xilas etmək istəyi də, bu şəhidlik də Vətənə görə idi. Şəhidlərimizi hamı ehtiramla xatırlayır. Hərbi xidmət əsgərlərin ehtiramını Vətənə sevgisindən keçirir - əsgər şəhidlərə, şəhidliyə ehtiramı da Vətənə sevgi bilir. Bizə bu düşüncələri də hərbi xidmət verdi...

**Əsgər Tural Əliyev:**

- Uşaqlığım, yeniyetməliyim Göygöl rayonunda keçib. Hərbi xidmətə də oradan çağırılmışam.

Hərbi xidmət hamımızı doğmalaşdırdı. İlk vaxtlar əsgər yoldaşı kimi olan münasibətlərimiz sonradan dostluğa çevrildi. Hərbi xidməti bu dostluqla başa vurduq. Bir-birimizə mənəvi dəstək olmaqla, bilmədiklərimizi bir-birimizdən öyrənməklə... Hələ çağırışçı olduğum vaxtlarda xidmətdən tərxis edilmiş əsgərlərin söhbətlərindən eşitmişdim: "Əsgər əsgərin dostudur". Bu fikir hər birimizin düşüncələrində özünə yer tapmışdı.

Əsgər yoldaşlarımızdan birinin ovqatı xoşumuza gəlməmişdi. Nəyə görəsə qayğılı idi. Soruşduq, heç nə demədi. Onun sükutuna görə biz səssiz dayanmamağı qərara aldıq. Əsgərlərdən biri onunla ikilikdə könül söhbəti elədi. Öyrəndi ki, ailəsi ilə neçə gündür əlaqə saxlaya bilmir. Axırıncı dəfə əlaqə saxlayanda atasının xəstələndiyini öyrənib. Komandirə məlumat verdik, komandirimiz bu problemi operativ həll etdi. Az sonra dostumuzu gülərüz görəndə ondan da çox sevindik. Əmin olduq ki, hərbi xidmət əsgərlərin ürəklərini eyni mətləbə kökləməyə də qadirdir. O gündən sonra bölüyümüz əsgər qardaşları bölüyü kimi tanındı. Biz qürurlanırdıq, komandirimiz də bizimlə qürurlanırdı. Bu qürur hərbi hissəmizin qüruru idi...

Hərbi xidmətin ilk vaxtlarında fiziki baxımdan zəif olan əsgərlərimiz də vardı. Onun özü də bunun aradan qaldırılmasına çalışırdı, əsgər yoldaşları da. Asudə vaxtlarda yoldaşlarımızın köməyi ilə turnikdə, paralel qollarda məşqlər edir, dözümlülüyünü artırmaq üçün orta məsafələrə qaçır, digər müxtəlif çalışmaları təkrarlayırdı. Qısa müddətdən sonra o da fiziki baxımdan formalaşdı.



Hərbi xidmət əsgərin sağlamlığını da formalaşdırmağa qadirdir. Bunun nəticəsidir ki, ordumuz qüdrətlidir.

Hərdən mən də düşünürəm: Hərbi xidmət mənə nə verdi? Əslində, sualı özümə ünvanlayanda belə cavablandırıram: Hərbi xidmət əsgəri əsl vətəndaş kimi formalaşdırır, hər əsgər sevdiyi Vətəni daha böyük sevgilərlə sevir, əmin olur ki, vətəndaşın Vətənə borcu hərbi xidmətlə tamamlanmır, hərbi xidmət əsgərə Vətənə həmişə xidmət etməli olduğunu öyrədir, harada işləyirsə, məsuliyyətlə işləməyin gərəkliyini öyrədir. Biz hərbi xidmətdən tərxis edilirik. Hərbi xidmətdən sonra da əsgəri məsuliyyətlə işləyəcəyik. Hərbi xidmət bizə həm də Vətənin işığında sağlam düşüncə aşıladı...

**Əsgər Hüseyn Rzaquliyev:**

- Əsgərlərin hamısı üçün doğum yeri birdir: Azərbaycan. Dövlətçiliyimizi, dövlətimizin sərhədlərini qorumaq hər bir əsgərin vətəndaşlıq borcudur. Bu borcun müqəddəsliyini hər birimiz orta məktəbdə oxuyanda dərk etmişdik. Müəllimlərimizin söhbətləri bizim də düşüncələrimizdə yaranmış müqəddəslik dünyasını milli özünüdərklə formalaşdırmışdı. Biz hərbi xidmətə bu düşüncələrlə gəlmişdik.

Hərbi xidmətin ilk günləri hər bir əsgər üçün müəyyən qədər ləng ötüşür - xidmət yoldaşlarını tanımırsan, tanıdıqlarının xarakterinə hələ tam bələd deyilsən, hərbi bacarıqları mərhələlərlə öyrənirsən, buna görə təlimlərdə bəzən yanlışlıqlara da yol verirsən. Bunlar xidmət dövründə öz axarına düşür. Əsgər yoldaşlarınla qarşılıqlı anlaşma ilə, qarşılıqlı ehtiramla, qarşılıqlı kömək göstərməklə... Bunları hərbi xidmət nizamlayır. Çox keçmir ki, sən də hərbi bilikləri mənimsəmiş, bacarıqlı əsgər olursan. Bacarıqlı əsgər həm də nümunəvi əsgər olur...

Hərbi xidmət hər əsgər üçün vətəndaş kimi formalaşma müddətidir. Biz də bilirik ki, bu müddət Vətən üçün yaşanılmalıdır. Orta məktəbdə yoldaşlarımızdan biri müəllimimizdən soruşmuşdu ki, əsl vətəndaş kimə deyirlər? Müəllimimizin cavabını unutmamışam, heç zaman unutmayacam da: "Ömrünü Vətən üçün yaşayanlara". Hərbi xidmətdə söz düşəndə müəllimimizdən eşitdiklərimi əsgər yoldaşlarıma da danışdım. Müəllimimizin bu fikrini onlar da bəyəndilər.

Biz də məsuliyyətlə xidmət edirik, biz də əsgər dostluğunu mənəvi zənginlik bilmişik, biz də hərbi bilikləri öyrənə-öyrənə, öyrəndiklərimizi təlimlərdə təkmilləşdirə-təkmilləşdirə döyüş hazırlığımızı yüksəltdik, nümunəvi xidmət etdik. İndi tərxis olunuruq. Bir vaxtlar müəllimlərimizi əmin etmişdik ki, xidmətimizlə onlara da, valideynlərimizə də qürur yaşadacağıq. Eyni fikirləri komandirlərimizə deyirik: tərxis edildikdən sonra onlara qürur yaşadacağıq.

*Hərbi xidmət hər bir gəncin müəyyən edilmiş müddətdə Vətənə xidməti deməkdir. Hərbi xidmətin mahiyyəti Vətən deməkdir. Siz Vətən əsgərlərisiniz, Vətənin layiqli vətəndaşları olacaqsınız!..*

*Hərbi xidmət bu dialektikanın, bu fəlsəfənin zaman düsturudur!*

*Tərxis edilən əsgərlərin düşüncələri də təsdiqləyir ki, hərbi xidmət həm də vətənpərvərlik məktəbidir...*

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Müəllim şair idi, döyüşlərdə şəhid oldu...



*Şəhid-şair Nizami Aydın yeniyetməliyində Gəncənin Nizamisi idi. Böyüdü, ali təhsil aldı, riyaziyyat müəllimi oldu, Qubada Rük və Zıxır kənd məktəblərinin Nizami müəllimi oldu. Gəncəyə qayıtdı, müəllim işlədi.*

*Birinci Qarabağ müharibəsi başlayanda döyüşlərə getdi. Azərbaycan Ordusunun əsgəri Nizami Salmanov kimi. O illərdə ədəbiyyatımızın, poeziyamızın Nizami Aydını idi. Nizami Aydın oğlu Salmanov... Tank komandiri idi.*

*1992-ci il iyunun 15-də Sırxavənd uğrunda gedən döyüşdə mühasirəyə düşmüş döyüşçülərimizi xilas etmək üçün tankını düşmənin səngərinə sürmüşdü, döyüşmüşdü, döyüşçülərimiz xilas olmuşdu. Ancaq Nizami yanan tankın içindən çıxa bilməmişdi...*

*Nizami Aydın şəhid oldu...*

*Şairin "Son dua" adlı şeirlər kitabı çap olunub. Nizami Aydının adını Gəncədə 18 saylı tam orta məktəb də yaşadır...*

*Şəhid-şairin iki şeirini təqdim edirik. Tarixi Zəfərimizə şəhid-şairin ruhunun xeyir-duası kimi...*

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

**Ən gözəl torpaq**

Çiçəkdən də yaxın,
otdan da yaxın
torpaqdır adama…
dünyanın şipşirin suları,
tərtəmiz göyləri
oxşayır, qardaşım,
oxşayır anama…

Ana torpağından götürülür
dünyanın ən gözəl torpağı.
Ana torpağından da gözəl
Bir nəysə gəlməz yadıma,
dəyməz gözümə.

İstərəm öləndə də
Ən gözəl torpaq kimi
Anamın saçları
tökülsün üzümə…

**Qanıma susayan…**

Ta qəm çökmüş baxışların
çəkdiyim aha dönməmiş,
ta həsrətin çözülməmiş -
ta əllərim üzülməmiş -
Yeksan olmuş küləyiylə,
şəhid olmuş buluduyla
bu eşq qanıma susadı…

Ahım kimi çəkilən qız,
qanım kimi tökülən qız,
Öldüyüm gün
Gözlərim tək yumulan qız,
Üz-gözümə kəfən kimi çəkilən qız,
torpaq kimi, dua kimi
üz-gözümə tökülən qız,
ta ruhumu pıçıltına,
ta canımı son ağına tapşırmamış…
Eşqin məni
üzü qara, qolu bağlı
gətirdi dərd qapısına…
Dərdim məni
bir qul sanıb
saldı eşqin ayağına…

… təkcə bizi qanlı görüb
Ümidimiz
Eşqimizdən göz yaşı tək üzülməmiş,
bu dünyanın üzümüzü dərd tanıtmış
qapıları bağlanmamış,
kəndirimiz kəsilməmiş, -
təkcə yaşaran gözüylə,
təkcə dən düşmüş saçıyla
bu dərd girdi qanımızın arasına.

*Tarix yazan oğullar*

# Şəhid baş leytenant Fuad Əlizadənin anım mərasimi keçirildi

*Naxçıvanda şəhid baş leytenant Fuad Nazim oğlu Əlizadənin anım mərasimi keçirildi. Mərasimdə Naxçıvan şəhər İcra Hakimiyyətinin əməkdaşları, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, güc strukturlarının əməkdaşları, hərbi qulluqçular, şəhid ailələri və ictimaiyyətin nümayəndələri iştirak etdilər.*



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Çıxış edənlər baş leytenant Fuad Əlizadənin şücaətindən, keçdiyi döyüş yolundan, Vətənə olan məhəbbətindən bəhs etdilər. Bildirildi ki, Fuad Əlizadə 2015-ci ildə "leytenant" hərbi rütbəsi ilə "N" hərbi hissəsində xidmətə başlayıb. Xidmətinin ilk illərində peşəkar zabit kimi 2016-cı ilin Aprel döyüşlərində iştirak edərək, qarşıya qoyulan tapşırıqları uğurla icra edib. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində də Murovdağ, Füzuli, Cəbrayıl, Qubadlı və Laçın istiqamətlərində gedən döyüşlərdə komandiri olduğu bölmə ilə birlikdə fəal iştirak edib. Fuadın döyüş yoldaşları onun bir komandir kimi liderlik keyfiyyətlərinin yüksək olduğunu xatırlayaraq döyüşlər zamanı yaralansa da, digər yaralı döyüşçü yoldaşlarını atəş altından çıxarmağa çalışdığını qeyd etdilər. Təəssüf ki, Laçın istiqamətində gedən döyüşlərdə snayper atəşi ilə vurularaq şəhidlik zirvəsinə ucalıb.

Şəhidin valideynləri çıxış edərək övladlarının həm ailəsinə, həm də Vətəninə bağlılığından qürur duyduqlarını, dövlətimiz tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə etdilər.

Qeyd edək ki, baş leytenant Fuad Əlizadə ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

**Bəxtiyar ƏLİYEV**
**"Naxçıvan Şəhid Ailələri"**
**İctimai Birliyinin mətbuat katibi**

*Nümunəvi xidmət*

# Nümunəvi xidmətin siması

***Vətən Azərbaycan xalqı üçün əsrlər boyu qorunan müqəddəs dəyər, babalarımızdan miras qalan əmanətdir. Bu torpağın hər qarışı igid övladlarımızın qanı ilə sulanıb, hər daşı xalqımızın mübarizə tarixinə şahid olub. Dövlətimizin müstəqilliyi, torpaqlarımızın bütövlüyü və toxunulmazlığı, eləcə də xalqımızın təhlükəsizliyi uğrunda canından keçən şəhidlərimizin ruhu bu gün də Azərbaycan Ordusunun hər bir əsgərinə güc, qətiyyət və məsuliyyət aşılayır.***



Bu torpaq uğrunda şəhid olan qəhrəmanlarımızın müqəddəs xatirəsi qarşısında baş əyir, Vətən müharibəsində iştirak edən hər bir qardaşımızın əzmini, canını Vətən yolunda sipər edən döyüşçülərimizin fədakarlığını sonsuz ehtiramla anırıq. Məhz bu amal, Vətənə sədaqət və torpağa bağlılıq Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusunun fəaliyyətinin təməlini təşkil edir. Azərbaycan Ordusunda xidmət edən hər bir hərbi qulluqçu bu müqəddəs ənənənin daşıyıcısıdır. Bu yüksək dəyərlərin yaşadıldığı şəxsi heyət arasında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Həsrət Zeynalov kimi igid hərbi qulluqçular da xüsusi yer tuturlar.

Peşəkarlığı, intizamı və Vətənə sədaqəti ilə seçilən çavuş Həsrət Zeynalov 13 illik xidmət yolu boyunca özünü nümunəvi hərbi qulluqçu kimi təsdiq edib. Xidmətə başladığı gündən etibarən hərbi intizama ciddi riayət edən, döyüş tapşırıqlarını məsuliyyətlə yerinə yetirən çavuş Zeynalov həm komandirlərin, həm də şəxsi heyətin etimadını qazanıb.

O, ölkəmizin hərb tarixində mühüm yer tutan 2016-cı ilin Aprel döyüşlərinin iştirakçısıdır. Döyüşlər zamanı göstərdiyi şücaət onun hazırlığının və peşəkarlığının bariz göstəricisi olub. Çavuş Həsrət Zeynalov 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsində də fəal iştirak edərək döyüş tapşırıqlarını yüksək məsuliyyətlə icra edib, mövqelərin azad olunmasında və şəxsi heyətin təhlükəsizliyinin qorunmasında fərqlənib.

Əslində, Vətənə şərəflə xidmət edən bütün hərbi qulluqçular üçün bunlar həm borc, həm də vəzifədir. Əminliklə deyə bilərik ki, hər bir hərbi qulluqçu xidmətindən razıdır. Çünki hərbi formanı daşımağın özü elə qürurdur.

Çavuş Həsrət Zeynalovun xidmət yolu bununla məhdudlaşmır. O, 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilmiş antiterror əməliyyatında da iştirak edərək yüksək hazırlıq nümayiş etdirib. Döyüş tapşırıqlarının yerinə yetirilməsində göstərdiyi çeviklik və komandirlərinin əmrlərinə peşəkarcasına yanaşması onun xidmətinin ən vacib xüsusiyyətlərindəndir.

Xidmət yoldaşlarının sözlərinə görə, o, hər zaman gənc hərbi qulluqçular üçün nümunə olub, qazandığı təcrübəsini paylaşmaqdan çəkinməyib və hər bir vəziyyətdə şəxsi heyətin təhlükəsizliyini ön planda tutub.

Çavuş Həsrət Zeynalovun fəaliyyəti Azərbaycan Ordusunun gücünü, peşəkarlığını və döyüş əzmini göstərən parlaq nümunələrdən biridir. Onun Aprel döyüşlərindən başlayaraq Vətən müharibəsi və antiterror əməliyyatına qədər keçdiyi yol, göstərdiyi igidlik və fədakarlıq Azərbaycan əsgərinin sarsılmaz iradəsinin təcəssümüdür.

Bu gün ordumuzun hər bir uğuru belə oğulların iradəsinə, qətiyyətinə və dönməz xidmətinə söykənir. Onların şərəfli yolu Azərbaycan Respublikasının müdafiəsinin daim təmin olunacağına olan inamı daha da möhkəmləndirir.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

*Sağlam bədəndə sağlam ruh olar*

# Çempionlarımızı tanıyaq

## Ordu İdman Klubunun cüdoçuları DİN-in açıq çempionatında qızıl medala layiq görülüblər




28-29 noyabr 2025-ci il tarixlərində keçirilən "Antiterror əməliyyatı şəhidlərinin xatirəsinə həsr olunmuş DİN-in açıq çempionatı"nda Ordu İdman Klubunun cüdoçuları uğurla çıxış ediblər.

Yarışda Ordu İdman Klubunun idmançıları - əsgərlər Elvin Bağırov və Murad Əliyev yüksək fiziki hazırlıq və peşəkarlıq nümayiş etdirərək bütün rəqiblərindən üstün olublar və fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq qızıl medal qazanıblar.




Əldə olunan nəticə, Azərbaycan əsgərinin gücünü, dözümünü və hərtərəfli hazırlığını əks etdirən nümunəvi göstəricidir. Bu kimi yarışlar şəxsi heyətin fiziki hazırlığının möhkəmləndirilməsinə, hərbi intizamın artırılmasına və sağlam həyat tərzinin təşviqinə mühüm töhfə verir, eyni zamanda, hərbi qulluqçuların xidmət fəaliyyətinə hazırlıq səviyyəsinin yüksəldilməsində əhəmiyyətli rol oynayır. Bu uğur şəxsi heyətin nümunəvi xidmətinin və əzmkarlığının göstəricisidir.

**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# HQ-9BE hava hücumundan müdafiə sistemi




HQ-9BE Çin istehsalı olan uzaqmənzilli raket kompleksidir. Raket "China Aerospace Science and Industry Corporation" (CASIC) (Çin Aerokosmik Elm və Sənaye Korporasiyası) tərəfindən istehsal olunur. HQ-9BE sistemi ilk dəfə ötən ilin fevralında Əbu-Dabidə keçirilən IDEX-2025 sərgisində Çin müdafiə şirkətləri "Norinco" və CATIC tərəfindən təqdim edilib. Silahın modulyar quruluşu, uzun mənzilli və güclü elektron müqavimət imkanları müxtəlif ölkələrin diqqətini cəlb edib.

HQ-9BE Çinin "FD-2000" kimi tanınan HQ-9 hava hücumundan müdafiə sisteminin ən yeni ixrac versiyasıdır. Sistem təyyarələr, qanadlı raketlər, PUA-lar, "hava-yer" raketləri və taktiki ballistik raketlər də daxil olmaqla, müxtəlif hava hədəflərini aşkar etmək və məhv etmək üçün nəzərdə tutulub.

Təxminən 7 metr uzunluğunda olan bu silah adətən 8x8 təkərli yük maşını (daşıyıcı) üzərinə quraşdırılır və təxminən 2000 kiloqram ağırlığındadır.

HQ-9BE sistemi 360 dərəcəlik buraxılışa malikdir və eyni anda 8-ə qədər hədəfi vurmağa qadirdir. Raketin vurduğu maksimum hündürlük isə 27 kilometrə yaxındır. Onun əməliyyat mənzili 250 kilometr, maksimal uçuş hündürlüyü isə 50 kilometrdir. Raket yarıaktiv radar idarəetmə sistemindən istifadə edərək hədəfləri (təyyarələri, helikopterləri, pilotsuz uçuş aparatlarını və raketləri) "Mach 4" sürətlə (təxminən 4939 km/s) dəqiq vura bilir.

Sistem hava hədəflərini aşkarlamaq, izləmək və zərərsizləşdirmək üçün nəzərdə tutulan müasir radar və idarə vasitələrinə malikdir. Mobil platforma üzərində yerləşdirilən sistem çoxsaylı hədəfləri eyni vaxtda izləyə bilir. HQ-9BE-nin güclü radioelektron qarşıdurma şəraitində davamlı işləmə qabiliyyəti var. Sistem, həmçinin digər HHM vasitələrinə komanda verərək çoxtəbəqəli hava hücumundan müdafiə sistemi yarada bilir və bu sistem daxilində həm önləyici, həm də idarəedici platforma funksiyasını yerinə yetirir.



Beynəlxalq hərbi nəşrlər bu silahın may ayında Hindistan-Pakistan münaqişəsi zamanı uğurla istifadə olunduğunu yazır.

**"Azərbaycan Ordusu"**

# İdman



### Azərbaycan idmançılarının yeni reytinq cədvəli açıqlanıb

Gənclər və İdman Nazirliyi (GİN) Olimpiya idman növləri üzrə milli komandaların idmançılarının dekabrın 1-nə olan reytinq cədvəlini açıqlayıb.

Siyahıya 480 xalla yunan-Roma güləşçisi Həsrət Cəfərov başçılıq edir. Azərbaycanın sərbəst güləşçisi Giorgi Meşvildişvili (460 xal) ikinci, cüdoçu Zelim Kotsoyev (430 xal) üçüncü pillədə qərarlaşıb.

Reytinq cədvəlində, həmçinin Ülvü Qənizadə (yunan-Roma güləşi, 400 xal), Elcan Hacıyev (cüdo, 370 xal), Osman Nurmaqomedov, Arseni Cioyev (hər ikisi sərbəst güləş, 340 xal), Zelim Tçkayev (cüdo, 330 xal), Murad Əhmədiyev (yunan-Roma güləşi, 330 xal) və Eldəniz Əzizli (yunan-Roma güləşi, 320 xal) yer alıblar.

### Azərbaycanın stolüstü tennisçisi dünyanın ən istedadlıları sırasında



Stolüstü tennisçi Onur Quluzadə Beynəlxalq Stolüstü Tennis Federasiyasının "Qlobal gənclər təlim düşərgəsi"nə qatılacaq.

İstedadlı idmançı Çinin Çendu şəhərində təşkil olunacaq toplanışda milli komandanın baş məşqçisi Mixail Timofeyevin rəhbərliyi ilə iştirak edəcək.

Onur Quluzadə bu düşərgəyə BSTF-nin qitələr üzrə ən istedadlı idmançıları üçün həyata keçirdiyi proqrama əsasən dəvət alıb.

Həmin proqram beynəlxalq yarışlarda mütəmadi olaraq yüksək nəticələr göstərən istedadlı stolüstü tennisçilər üçün nəzərdə tutulub ki, xüsusi seçilmiş 40 idmançı arasında Onur Quluzadə də yer alır.

"Qlobal gənclər təlim düşərgəsi" dekabrın 13-dək davam edəcək.



### Azərbaycanın iki fiqurlu konkisürəni dünya çempionatına vəsiqə qazanıb

Azərbaycanı beynəlxalq fiqurlu konkisürmənin buz üstündə rəqs növü üzrə yarışlarda təmsil edən Anna Obrien və Dreyk Tonq cütlüyü yeniyetmələr arasında keçiriləcək dünya çempionatına vəsiqə qazanıb.

Onlar bu uğura Macarıstanın Budapeşt şəhərində keçirilən "Santa Klaus" kubokunda 11 idmançı arasında (126.79 xal) 6-cı yeri tutmaqla nail olublar.

Qeyd edək ki, yeniyetmələr arasında dünya çempionatı martın 3-8-də Estoniyanın paytaxtı Tallin şəhərində keçiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar

### Ukrayna Baş Kəşfiyyat İdarəsi Krımda Rusiyaya məxsus MiQ-29 qırıcısını məhv edib



Ukrayna Baş Kəşfiyyat İdarəsi Krımda Rusiyaya məxsus MiQ-29 qırıcısını məhv edib.

Bu barədə Baş Kəşfiyyat İdarəsinin "Teleqram" səhifəsində məlumat yayılıb.

Məlumata görə, dekabrın 4-nə keçən gecə Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin xüsusi təyinatlı dəstəsi Krımdakı Kaça hərbi aerodromunda Rusiyanın çoxməqsədli MiQ-29 qırıcısını məhv edib.

Həmin gecə Ukrayna xüsusi təyinatlıları müvəqqəti işğal olunmuş Simferopol yaxınlığındakı İrtış aerodromunun radar sisteminə də zərbə endiriblər.

Məlumata görə, Baş Kəşfiyyat İdarəsinin xüsusi təyinatlıları müvəqqəti işğal altında olan yarımada üzərində rusların hava hücumundan müdafiə sistemini sistemli şəkildə zəiflədir.



### ABŞ Sakit okeanda narkotik ticarəti ilə məşğul olan gəmiyə zərbə endirib

ABŞ ordusu Sakit okeanda beynəlxalq sularda narkotik qaçaqmalçılığı ilə məşğul olan bir gəmini məhv edib.

Bu barədə ABŞ Cənub Komandanlığı məlumat yayıb.

"Kəşfiyyat gəminin narkotik maddə daşıdığını və Sakit okeanın şərqində məlum narkotik qaçaqmalçılığı marşrutu ilə hərəkət etdiyini təsdiqləyib. Gəmidə dörd narkotik terrorçusu olub, onlar öldürülüb", - komandanlığın bəyanatında qeyd olunur.

Pentaqon ABŞ-ın narkotik ticarəti ilə məşğul olan gəmilərə endirdiyi zərbələrin qanuni olduğunu bildirib.

Dekabrın 3-də ABŞ Prezidenti Donald Tramp Latın Amerikasında narkotik kartelləri ilə mübarizə çərçivəsində Vaşinqtonun tezliklə quru hədəflərinə də zərbələr endirəcəyini bəyan edib. ABŞ Venesuelanı narkotik ticarəti ilə kifayət qədər mübarizə aparmamaqla ittiham edir.

Sentyabr ayından bəri ABŞ qüvvələri bu bölgədə ən azı 20 sürətli qayığı batırıb və nəticədə 80-dən çox insan həlak olub.

**AZƏRTAC-ın materialları əsasında**

Mustafayev Səfər Yusif oğluna verilmiş MV № 051115 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Redaktor | Telefonlar | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı Xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | Şəlalə DÜNYAMALIYEVA | Lisenziya № 361 Sifariş № 819 Nüsxə 3665 |